# İmaddədin Nəsimi yaradıpcılığında aşıq obrazı

Azərbaycan ədəbiyyatında siyasi-fəlsəfi qəzəlin ilk nümayəndəsi olan Nəsimi yaradıcılığında əsas mövzulardan biri olan məhəbbət mövzulu şeirlərində ilahi və real məhəbbət ideyalarının vəhdəti ilk baxışdan gözə çarpır. Nəsiminin yaratdığı aşiq obrazı özünü dərk edən, haqqı tapmış, kamil bir lirik qəhrəmandır. Aşiq məhbubuna yetişmək üçün eşq oduna alışıb yanır, keşməkeşli yollardan keçir və sonunda öz sevgilisinə qovuşur. Lakin aşiq eşqi bəla hesab etmir, çünki o, yaxşı bilir ki, eşq bir bəla deyil, o dərdi də, dərmanı da özündə olan ilahi bir səadətdir. Şairin "Aşiq bəla yolunda gərək kim, həmul ola" qəzəlinin lirik qəhrəmanı öz məşuqəsi yolunda qəm çəkməyə hazırdır. O, sevgilisi yolunda bəlaya həmul (kəcavə) olmağa razıdır. Çünki yar yalnız gərçək mühibbə (sevən, məhəbbət bəsləyən) cəfa edər, əsl aşiqsə, qəmdən inciməz, məlul olmaz. O aşiq daimi nazü-nemət, eyş-işrət içində olar ki, onun muradı hasil ola və öz dilbərinə- yaradana qovuşa. Amma mürşidi yaxşı olmayan aşiq yarına qovuşa bilməz. Burda müəllif öz mürşidi Nəiminin timsalında müridlər yetişdirən bütün mürşidləri nəzərdə tutur. Çünki həqqi dərk etmək, həqiqət mərhələsinə qovuşmaq üçün şəriət mərhələsindən başlamalı, bir sözlə mürşidin rəhbərliyi ilə şəriətin hökmlərini dərk etməli, ilahi eşq yolunda rastlaşacağın çətinliklərə sinə gərməyi öyrənmək lazımdır:

*Aşiq bəla yolunda gərək kim, həmul ola,*
*Məşuqədən ana nə gəlürsə, qəbul ola.*

*Gerçək mühibbə cövrü cəfa çünki yar edər,*
*Neyçün cəfadən incinə, qəmdən məlul ola?*

"Başını top eyləgil, gir vəhdətin meydanına" qəzəlində eşqin bəlasını çəkməyəni, hicran qəmini dadmayanı əsl aşiq hesab etməyən aşiq belələrinin dərdinə dərman olmadığını vurğulayır. "Nagəhan könlümə düşdü şurişi-qovğayi-eşq" qəzəlində də eşqin aşiqi divanəyə döndərməsini deyən şairin li-rik məni eşqə düşməyənin eşqin qədrini bilmədiyini söyləyir. Əsl aşiq gərək ki, rüsvayi-eşq ola. Çünki Nəsimiyə görə insan kamilləşmək üçün eşq yolunu keçməlidir. Bu yolu keçməyən insan kamil insan olmaz. "Afərin olsun nigarın zülfi ilə qaşina" qəzəlində aşiq eşqlə yoldaş olmayanın mənzilə (həqiqət mərhələsi nəzərdə tutulur) çata bilməyəcəyini söyləyir:

*Mənzilə irmək dilərsən, eşqi yoldaş eyləgil,*
*İrmədi mənzilinə, kim baxmadı yoldaşinə.*

"Şənbə günü mən uğradım ol sərvi-rəvanə" şeirində aşiqin ilahi eşq yolculuğunda keçdiyi 7 məqam ayrı-ayrılıqda təsvir olunur. Hər bir məqam öz fərdi xüsusiyyətləri ilə digərlərindən fərqlənir və aşiq mistik eşq yolculuğunda bir məqamdan digərinə keçdikdə yeni mənəvi keyfiyyətlər qaza-nır. Bu məqamların sonuna yetişən aşiq maddi nemətlərdən uzaqlaşaraq mənəvi kamilliyə, məşuquna, yaradanına qovuşur. Əlbəttə ki, aşiq bu məqamlarda çox əziyyətlərlə, çətinliklərlə üzləşir. Əgər səbirli olsa, bu məqamları adlayaraq ən son məqama, mənzilinə yetişə bilər. Səbrli olmaq isə əsl aşiqə xas olan keyfiyyətlərdəndir.

*Şənbə günü uğradım ol sərvi-rəvanə,*
*Şeyda qılıban saldı məni cümlə cəhanə.*

Müsəlman aləmində həftə şənbə günündən başlayır və mistik yolculuğa da aşiq həmin gün başlayır. Bu beytdə təsvir olunan məqam ilk olan Muladxaradır. Bu çarx maddi aləmi, maddiyyatı əks etdirir. Aşiq də həmin gün öz sevgilisinin, sərvi-rəvanının eşqinə uğrayır və bu eşq onu dəli divanə edib çöllərə salır. Təsəvvüfə görə, ilahi eşq üçün əvvəlcə maddi, real gözələ qarşı eşq olmalıdır, çünki real gözəl həqiqi məşuqla aşiq arasında müəyyən mərhələləri keçənədək vasitəçi rolunu oynayır. Həqiqətə çatmış aşiq əsl sevgi-lisinə qovuşaraq vəhdət yarandıqda isə artıq real gözəl də aradan götürülmüş olur, yəni cüz küllə, zərrə ümmana qovuşur.

*Yekşənbə günü məcnun olub heyranı oldum,*
*Gördüm üzün, oxşatdım anı mahi-təbanə.*

Bu beytdə isə ikinci məqam olan Svadxistanaya yetişən aşiq əsl eşqi dadır. Artıq o öz sevgilisi yolunda məcnuna çevrilir. Sevgilisinin üzünü gördükdə onu aya bənzədən aşiq sevgilisinə qovuşmaq arzusu ilə alışıb yanır və bu güc onu növbəti mərhələlərə doğru sürükləyir. Svadxistana çarxının da əsas xüsusiyyəti həzz, hiss və ehtirasdır. Bu çarxı eşq çarxı da adlandırırlar. Bu mərhələyə qədəm qoyan aşiq əsl eşqi dadır.

*Düşənbə günü razi-dilimi dedim axır,*
*Ol gözləri nərgis, üzü gül, qaşı kəmanə.*

Düşənbə günü öz ürək sirrini bəyan edən aşiq üçüncü məqam olan Manipuraya yüksəlir. Bu məqam aşiqdən daha böyük səbr, hövsələ tələb edir. Bu mərhələdə artıq maddi eşqlə ilahi eşq vəhdətdə irəliləyir, artıq aşiqdə ilahi eşqin qığılcımları oyanır. İkinci misrada görürük ki, aşiq gözəlin gözlərini nərgizə, üzünü gülə, qaşını kəməndə bənzədir. Belə bir bənzətmə real gözələ aiddir. Digər tərəfdən artıq eşq aşiqin qəlbində özünə yer edib. Aşiq artıq maddi eşqdən ilahi eşqə doğru yönəlir.

*Səşənbə günü səyyad olub seyrana çıxdım,*
*Mən seyd olubən qurban olum püstə dəhanə.*

Bu beytdə isə biz Anaxata çarxına yetişən aşiqi görürük. Bu məqamda aşiqin ilahi eşqə olan marağı daha da güclənir. Onun məstliyi artır, ilahi sirlərə daha yaxşı yiyələnməyə başlayır. Şeirdəki "səyyad olub seyranə çıxdım" deməsi, aşiqin dünyanı daha yaxşı dərk etməyə başladığının nişanəsidir. Dünyanı kəşf etdikcə, maddi dünyanın iç üzünə bələd olduqca, ondan uzaqlaşmağa çalışan aşiq ilahi məhbubuna doğru daha böyük şövqlə irəliləyir.

*Çərşənbə günü yar gəzə gəldi çəmən içrə,*
*Bülbül dəxi gördü üzünü, düşdü fəğanə.*

Vişudxa məqamına yetişən aşiq çərşənbə günü sevgilini görən bülbülün fəğana düşdüyünü bildirir. Bu mərhələ də dərk etmə ağılla yox, qəlblə olur. Aşiq artıq bu zaman anlayır ki, bütün sevinci, fərəhi qəmli günlərinin nəticəsidir. Aşiq eşq yolunda o qədər əzab çəkib ki, nəticədə o öz məhbubuna daha da yaxınlaşıb.

*Pəncşənbə günü yarə dedim: pəndim eşitgil,*
*Faş etmə bu razi-dilimi yaxşı-yamanə.*

Artıq aşiq Acna məqamına yetişmişdir. O, sevgilisinə öz ürək sirrini yaxşı-yamana söyləməməyi məsləhət görür. Bu da onu göstərir ki, aşiqin bəsirət gözü açılıb. O, artıq yaxşını, yamanı fərqləndirməyi bacarır. Bəsirət gözünün açılması isə batinin dərkinə, olacaq hadisələri əvvəlcədən görməyə gətirib çıxarır. Aşiq öz sirrini başqalarının bilməsi zamanı başına gələcəkləri dərk etdiyi üçün məşuquna belə bir məsləhət verir. Bu mərhələ aşiqi həqqə daha da yaxınlaşdırır.

*Adinə günü gördü camalını Nəsimi,*
*Əmdi ləbi-lə'li-şəkkərin ol qanə-qanə.*

Adna günü ilahi eşq yolculuğu sona ərir. Bu məqam ən son məqam olan Saxasrara çarxıdır. Bu zaman aşiqin ağlı qəlbinə enir, artıq qəlblə əql birləşir. O, öz məhbubuna qovuşur. İkilik aradan götürülür.



**Elnurə**
**SSFLATUN**